# Eldar ŞƏRİFOV-80



Hörmətli Eldar müəllim!

Sizi - istedadlı yazıçı-publisist və tərcüməçini 80 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda təhsil alarkən Lenin təqaüdünə layiq görülmüş, institutu fərqlənmə diplomu ilə bitirib, "Yazıçı" nəşriyyatında redaktor kimi əmək fəaliyyətinə başlamısınız. Bir müddətdən sonra böyük redaktor vəzifəsinə keçmisiniz. Sonralar Dövlət Mətbuat Komitəsində aparıcı redaktor, "Azərbaycan məktəbində rus dili və ədəbiyyat" jurnalının baş redaktor müavini, "Ekonom-ekspress" qəzetinin baş redaktor müavini, "Yurd" jurnalının məsul katibi vəzifələrində işləmisiniz. Hazırda "Literaturnıy Azerbaydjan" jurnalının məsul katibisiniz. İlk publisist yazınız 1962-ci ildə "Neftçi kadrlar uğrunda" qəzetində dərc olunub. Bədii tərcümə ilə ciddi məşğul olursunuz. Dahi şairimiz Nizami Gəncəvinin "Xəmsə"sinin süjetləri əsasında nağılları rusdilli oxuculara çatdırmısınız. Mirzə İbrahimov, Süleyman Rüstəm, İsmayıl Şıxlı, Fərman Kərimzadə, Yusif Həsənbəy kimi görkəmli söz ustalarımızın, o cümlədən Dağıstan şairi Rəsul Həmzətovun yaradıcılığından nümunələri rus dilinə çevirmisiniz. Maraqlı tərcümə işlərinizdən biri də böyük messenat H.Z.Tağıyevin tərcümeyi-halını əks etdirən və 1903-cü ildə nəşr edilmiş unikal əsərin tərcüməsidir. Bədii tərcümələriniz peşəkarlıq səviyyəsi, orijinala yaxınlığı ilə seçilir.

Hörmətli Eldar müəllim!

Sizi bir daha 80 illik yubileyiniz münasibətilə təbrik edir, cansağlığı, uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2023- cü il.-3 iyun.- S. 23.